BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2015*

UOT 904

# II RUSİYA-İRAN MÜHARİBƏSİ VƏ "ERMƏNİ VİLAYƏTİ"NİN YARADILMASI

**E.Z.ƏLİYEV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***elmir0880@gmail.com***

*Məqalədə II Rusiya-Qacar müharibəsindən sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti"nin təşkil olunması və bu əraziyə Qacarlar və Osmanlı imperiyalarından ermənilərin köçürülməsi prosesindən bəhs olunur. Çar Rusiyası erməniləri bu torpaqlarda məskunlaşdırmaqla Cənubi Qafqazda geosiyasi mövqeyini möhkəmləndirmiş, öz müstəmləkəçilik siyasətini həyata keçirmək üçün erməni amilindən istifadə etmişdir. Bununla da Cənubi Qafqaz ərazisində və Türkiyədə ermənilərin ərazi iddiaları ilə bağlı olan müxtəlif milli münaqişə ocaqları meydana gəlmişdir.*

**Açar sözlər:** müharibə, müqavilə, vilayət, qoşun, köçürülmə

Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal olunmasından sonra ermənilərin kütləvi surətdə torpaqlarımıza köçürülməsi prosesi baş vermişdi. Rusiya ilə Qacarlar arasında Türkmənçay sülh müqaviləsinin bağlanılmasından (10 fevral 1828-ci il) dərhal sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində yaradılan "Erməni viulayəti"ndə ermənilərin sayı süni şəkildə artırılmışdı.

Hələ 1813-cü ildə Rusiya ilə Qacarlar İranı arasında imzalanmış Gülüstan sülh müqaviləsindən sonra da bu dövlətlər arasındakı münasibətlər gərgin olaraq qalırdı. Rusiya qacarlardan yeni torpaqlar qoparmaq məqsədindən əl çəkməmişdi. Hər iki dövlət məxfi şəkildə müharibəyə hazırlaşırdı [1,143].

Gülüstan müqaviləsi bölgədə müvəqqəti sakitliyə səbəb olsa da, onun nəticələri nə Rusiyanı, nə də Qacarlar İranını qane etmirdi. İran tərəfi müharibənin əsassız yerə uduzulduğunu, Rusiya tərəfi isə qarşıya qoyulan məqsədin tam surətdə həyata keçirilmədiyini hesab edirdi. Müqavilə Rusiyanın Cənubi Qafqazdakı hərbi uğurlarını təsdiq etsə də, bu dövlət bölgədə hələ də lazımınca möhkəmlənə bilməmişdi. Başlıca məqsəd - iki dövlət arasındakı sərhəd xəttini Arpaçay və Araz çaylarından müəyyənləşdirməklə Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsi planı hələ də reallaşmamışdı [2, 325-326].

İrəvanın işğalı rusların Qafqaza gəlişinin ilk günlərindən gündəmdə olsa

da, İrəvan yürüşləri ya məğlubiyyətlə nəticələnir, ya da təxirə salınırdı. I Nikolay da öz sələfi kimi İrəvanın tutulmasını səbirsizliklə gözləyir, bu işin vacibliyini tez-tez Yermolova xatırladırdı. İrəvan xanı isə əsrin əvvəlində itirilmiş əraziləri geri qaytarmaq niyyətində idi və hətta Tiflisə hücum etmək üçün əlverişli məqam da gözləyirdi. Beləliklə, hər iki tərəf müharibəyə hazırlaşır, qüvvələrinin sayı artırılır və münasibətlər kəskinləşirdi [3,162].

Hələ 1826-cı ilin yazında rus komandanlığı Şirəkə hücum etməyi qərara almış və bununla da Rusiya İrəvan xanlığına qarşı yeni hücum kampaniyasına başlamışdı. 1826-cı il iyulun 16-da İrəvan xanının qoşunları əks hücuma keçərək Şirəkə, qardaşı Həsən xanın qüvvələri isə Şörəyelə daxil oldular. Rus qoşunları xeyli itki verərək geri çəkilməyə məcbur oldular. Rusiya qoşunlarının işğal etdikləri Balıqçay, Sadağaçay, Qarakilsə və digər keşikçi məntəqələri darmadağın edildi. Həsən xanın qoşunları Gümrü yolunu nəzarətə götürdülər. Beləliklə, qısa müddət ərzində Pəmbək və Şörəyel işğalçılardan təmizləndi. Bundan bir neçə gün sonra - 1826-cı il iyulun 19-da II Rusiya-Qacar müharibəsi başlandı [4, 327-329].

Rusiya ordusunun Qafqazdakı baş komandanı general Yermolov əvvəlki mövqelərin itirilməsi və xan qoşunlarının Gürcüstan sərhədlərinə yaxınlaşması ilə barışmaq istəməyərək Balıqçay məntəqəsinə yeni dəstə göndərdi. Lakin 166 nəfərdən ibarət olan bu hərbi dəstə iyulun 26-da xan süvariləri tərəfindən mühasirəyə alınaraq, demək olar ki, tamamilə məhv edildi. Onlardan 113 nəfəri öldürüldü, başda dəstə komandiri olmaqla 18 nəfər əsir götürüldü, qalan 40 nəfər isə döyüş meydanından qaçmağa məcbur oldu. Ruslar bu məğlubiyyətin səbəbini dəstədəki rus xidmətinə girmiş qazaxlılarla bağlayaraq, bildirirdilər ki, onların bir hissəsi rus dəstələrinə qarşı çıxmış, digərləri isə, guya, ilk atəşdən sonra qaçmışdılar [4, 329].

Çar I Nkolay xanlıqlarda başlanan müharibə və rusların həmin ərazilərdən qovulması barədə hələ məlumat almadığına görə, avqustun 1-də İrəvan üzərinə yürüşə çıxmaq barədə fərman verdi. Lakin Yermolov bu göstərişi yerinə yetirə bilmədi [3, 164]. Çünki artıq müstəmləkəçilərə qarşı xalq azadıq hərəkatının başlanması nəticəsində bütün Şimali Azərbaycan xanlıqları üzərində nəzarət itirilmişdi və rus qoşunlarının İrəvana doğru hərəkət etməsi mümkün deyildi. Buna görə də Rusiya imperatorunun fərmanı ilə nəzərdə tutulan yürüş təxirə salınmışdı [4, 330-331].

Yermolov isə mövcud qüvvələrlə İrəvan xanlığını tutmaqla kifayətlənməyi, qalalarda rus qoşunlarına dəstək olan ermənilərdən istifadə etməklə, onların hamısını müsəlmanlara qarşı silahlandırmağı təklif edirdi. Daha sonra Meşkin vilayətindən keçməklə Ərdəbil, Xalxal və Güney Azərbaycanın başqa vilayətləri tutulmalı, Lənkəran xanlığı isə əsarət altına alınmalı idi. Çar I Nikolay Yermolovun əsas zərbənin İrəvan xanlığına endirilməsi fikrini bəyənmiş və planı təsdiq etmişdi [4, 331-332].

Lakin çar I Nikolay Qafqazın baş hakimi Yermolova o qədər də etibar etmirdi. Yermolov dekabristlərlə əlaqə saxlamaqda şübhəli bilinirdi. Buna

müvafiq olaraq I Nikolay Yermolovu əvəz etmək üçün öz sevimli generalı İ.F.Paskeviçi Tiflisə göndərmişdi. Paskeviç Tiflisə gəldikdən sonra öz ixtiyarındakı qoşunlarla birlikdə Gəncəyə doğru irəlilədi. 1826-cı il sentyabrın 10-da Paskeviç artıq Gəncədə idi [5, 194]. Onun sərəncamında 10391 nəfər (7 batalyon, 1 draqun və 2 kazak alayı, 300 gürcü atlısı) və 24 top var idi [3,s.154].

Bir qədər irəli gedərək bildirək ki, Yermolovun əvəzinə Paskeviçin Qafqazdakı qoşunların baş komandan təyin edilməsi rəsmi surətdə 1827-ci il martın sonlarında baş vermişdi. Yeni baş komandan İrəvan xanlığının strateji məntəqə kimi böyük əhəmiyyətə malik olduğunu başa düşür və ilk zərbəni bu xanlığa endirməyi qərara almışdı [4, 332].

1826-cı ilin sonunda Yermolov və Paskeviçin rəyi əsasında baş qərargah növbəti hərbi kampaniya ilə bağlı iki layihə işləyib hazırlamışdı. Paskeviçin bəyəndiyi ikinci layihəyə əsasən düşmənə qəflətən zərbə endirilməli, İrəvan və Naxçıvan vilayətləri Azərbaycanın başqa yerlərindən tamamilə təcrid olunmalı, əsas hədəf isə Təbriz olmalı idi [3, 165].

Qeyd edək ki, G.Nəcəfli öz məqaləsində rus tədqiqatçısı İ.Şopenin 1826-cı ildə İrəvan xanlığında apardığı hesablamalara istinadən bildirir ki, həmin vaxt əhalinin 80 %-dən çoxu Azərbaycan türklərindən, təxminən yalnız 20 %-i isə ermənilərdən ibarət idi. Müəllif bu faktın erməni müəllifi Q.Bornotyanın əsərində də təsdiq olunduğunu qeyd edir [6,s.84].

Rusiyanın İrəvan üzərinə yürüşlərində bir neçə mərhələni qeyd etmək vacibdir: 1827-ci il aprelin 16-17-də Rusiya işğalçıları tərəfindən Sərdarabad qalasının birinci mühasirəsi və qalanın qəhrəmancasına müdafiəsi; 27 aprel-23 iyun 1827-ci ildə İrəvan qalasının üçüncü mühasirəsi və qala qəhrəmanlarının Rusiya işğalçılarına təslim olmaması; 1827-ci il sentyabrın 14-20-də Sərdarabad qalasının rus qoşunları tərəfindən ikinci mühasirəsi, qalanın qəhrəmancasına müdafiəsi və süqutu; 1827-ci il sentyabrın 24-dən oktyabrın 1-dək İrəvan qalasının dördüncü mühasirəsi, erməni xəyanəti və İrəvan qalasının süqutu [4, 333-352].

İrəvan qalasının dördüncü mühasirəsi zamanı ermənilər Paskeviçlə əlaqəyə girə bilmiş və azərbaycanlıların qalanın hansı hissəində yerləşdiklərini, top atəşlərini hansı istiqamətlərə yönəltməyin lazım olduğunu ruslara bildirmişdilər. Rus qoşunları erməni xəyanətindən istifadə edərək qalaya daxil olmuş və onlarla qalanın qəhrəman müdafiəçiləri arasında qanlı döyüş baş vermişdi. Həsən xan Qacar 200 nəfərədək əyanla birlikdə qaladakı məscidlərin birinə çəkilərək müqavimət göstərməkdə yenə də davam etmişdi. Lakin axşama yaxın İrəvan qalası işğalçıların əlinə keçmiş, Həsən xan Qacarla bərabər qalanın komendantı Sübhanqulu xan, xüsusi tabor komandiri Qasım xan, Mərəndli Cəfərqulu xan, Təbrizli Əlimərdan xan, Əhərli Aslan xan, Fətəli xan və başqaları ələ keçirilmişdi [4, 348-350]. Fars qoşunlarının tərkibində iştirak edən ermənilər də İrəvan qalası uğrunda aparılan döyüşlərdə daha çox casusluqla, bələdçiliklə və xəyanətkarlıqla məşğul olmuşdular [2, 337]. Qeyd edək ki, ruslar İrəvan qalasını alanda şəhərdəki əhalinin 70 %-dən çoxunu azərbaycanlılar təşkil

edirdilər [7, 9].

Rus qoşunları İrəvanı aldıqdan sonra müxtəlif istiqamətlərdə cənuba doğru yürüşə başlamışdılar. Tezliklə Mərənd, Təbriz, Xoy, Səlmas və Marağa da zəbt olunmuşdu. Dehqarağandakı danışıqlarda Paskeviçin ultimatumu yerinə yetirilmədiyinə görə hərbi əməliyyatlar yenidən başlamışdı. Urmiya və Ərdəbil də rusların əlinə keçmişdi. Ərdəbildəki nadir əlyazmalar kitabxanası ruslar tərəfindən qarət edilmişdi. Tehran üçün yaranan birbaşa təhlükə şahı sülh müqaviləsi bağlamağa sürükləyirdi [3, 170].

Naxçıvanın işğalı ilə bağlı onu bildirək ki, 1827-ci ilin iyununda Naxçıvana yürüş etməyi qərarlaşdıran Paskeviç qoşunlarını Gərniçaydakı düşərgəyə toplamışdı. İyunun 19-da qoşunlar hərəkətə başlayıb, əvvəlcə Dəvəli kəndinə girdilər. Sərdar əvvəlcədən əhalini İrəvana köçürdüyünə görə, kənd bomboş idi. V.U.Umudlu öz əsərində Naxçıvanda ruslara qarşı hər hansı müqavimət göstərilməsi barədə məlumatın olmadığını qeyd edir və ehtimal edir ki, Kərim xan müqavimət göstərə bilməyəcəyini zənn edib xanlığı tərk etmişdi. İyunun 26-da Naxçıvan ələ keçirilmişdi [3, 167].

1828-ci il fevralın 9-dan 10-na keçən gecə Türkmənçay kəndində Rusiya ilə Qacarlar arasında müqavilə imzalandı. 16 maddədən ibarət olan müqavilənin üçüncü maddəsi İrəvan və Naxçıvan xanlıqlarının da Rusiyaya keçməsini nəzərdə tuturdu. Dördüncü maddə iki dövlət arasındakı sərhəd xəttini müəyyənləşdirir, səkkizinci maddə isə Xəzər dənizində yalnız Rusiya hərbi gəmilərinin üzməsinə icazə verirdi və sairə [3, 170].

Beləliklə, Türkmənçay müqaviləsinə əsasən Azərbaycan torpaqları Azərbaycan xalqının iradəsi nəzərə alınmadan iki imperiya arasında ikinci dəfə bölüşdürüldü. Şimali Azərbaycan çar Rusiyasının əsarəti altına düşdü, Cənubi Azərbaycan isə Qacarların əlində qaldı [4, 351].

Türkmənçay müqaviləsi 1828-ci il martın 20-də təsdiq edildi, onun ertəsi günü – martın 21-də isə I Nikolayın “Erməni vilayəti” yaradılması haqqında imzaladığı fərmanda deyilirdi: “İranla bağlanmış müqaviləyə əsasən, İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra “Erməni vilayəti” adlandırmağa hökm edir və titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali Senat lazımi fərmanları öz vaxtında alacaqdır” [4, 379].

İrəvan və Naxçıvan xanlıqlarının torpaqları hesabına yaradılan “Erməni vilayəti” İrəvan və Naxçıvan əyalətlərinə, habelə Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə, keçmiş İrəvan xanlığında olduğu kimi, 15 mahal, Naxçıvan əyaləti və Ordubad dairəsinin hər birinə 5 mahal daxil idi. İmperatorun fərmanı ilə “Erməni vilayəti” təşkil olunan zaman İrəvan əyalətində İrəvan, Sərdarabad, Şərur və Sürməlidən ibarət olan 4 dairə də yaradılmışdı [4, 379].

Beləliklə, Qafqazda, həm də Azərbaycan torpağında ilk dəfə olaraq ermənilərin fiziki-coğrafi ərazisi – “Erməni vilayəti” yaradıldı [8, 257]. Bununla da Azərbaycan torpaqlarında sonralar erməni dövlətinin yaradılmasının, həm də Cənubi Qafqaz regionunda yeni gərginlik ocağının əsası qoyuldu [4, 352].

1826-1828-ci illər Rusiya-Qacar və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin Rusiya imperiyası üçün uğurla başa çatması ermənilərin Şimali Azərbaycan ərazisinə kütləvi surətdə köçürülməsi üçün əlverişli şərait yaratmışdı. Türkmənçay sülh müqaviləsinin imzalanması "Erməni vilayəti"nin yaradılmasından əlavə, bir sıra digər vəzifələrin də həyata keçirilməsinə zəmin hazırlamışdı. Rusiya imperiyası Şimali Azərbaycanda İran və Türkiyə ermənilərinin yerləşdirilməsi işinə başlamışdı ki, bu da onun Cənubi Qafqazdakı mövqelərini möhkəmləndirirdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İrandan ermənilərin Rusiyaya sərbəst surətdə keçməsinə icazə verilirdi [8, 257-258]. 1 il ərzində köçənlərə İranın hökumət və yerli hakimiyyət orqanlarının heç bir maneçiliyi olmadan, onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq hüququ verilirdi [9, 130]. Müqaviləyə görə, həmin ailələrin əmlakı 5 il müddətində onların ixtiyarında qalırdı və bu müddətdə ermənilərə öz mülkiyyətini satmaq və ya onunla istədikləri kimi davranmaq hüququ verilmişdi [2, 371]. 1829-cu il sentyabrın 2-də Ədirnədə Osmanlı və Rusiya arasında bağlanmış müqavilənin 13-cü maddəsi isə Osmanlı imperiyasında yaşayan ermənilərin kütləvi şəkildə, 18 ay müddətində daşınan əmlakları ilə birlikdə Azərbaycan torpaqlarına köçürülməsini rəsmiləşdirmişdi. Qeyd edək ki, bu müqavilənin 13-cü maddəsinin işlənilib hazırlanmasında Rusiya tərəfinin təkidi böyük rol oynamışdı [10, sənəd 818, 830].

Beləliklə, Rusiya imperiyasının erməniləri İrandan Şimali Azərbaycanın qərb bölgələrinə və Qarabağa köçürməsi siyasəti azərbaycanlıları öz doğma yurdlarından sıxışdırıb çıxarmaq məqsədinə xidmət edirdi və "erməni dövləti"nin yaradılmasına hazırlıq idi. Tarixi hadisələrin sonrakı gedişi də sübut etmişdi ki, İran erməniləri Şimali Azərbaycana onlara "yeni vətən" yaratmaq məqsədilə köçürülmüşdülər [4, 390].

Ermənistan azərbaycanlılarının tarixi coğrafiyasına aid monoqrafiyada ABŞ professoru Castin Makkartinin məlumatına istinadən göstərilir ki, hələ 1828-ci ildə ruslar Şərqi Anadoluya hücum edərkən, geri qayıtdıqda özləri ilə bərabər 100 min ermənini də Qafqaza gətirmiş və onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişdilər [7, 27].

1826-1828-ci illər Rusiya-Qacar və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələrindən sonra kütləvi köçürmələr zamanı "Erməni vilayəti"nin İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə İran və Osmanlıdan 10631 ailədən ibarət olan 57226 nəfər erməni köçürülmüşdü. Köçürmələrdən əvvəl həmin ərazidə cəmi 25151 nəfər erməni 4428 ailə yaşayırdı ki, onlar da əsrin əvvəlində baş verən I Rusiya-Qacar müharibəsi zamanı köçürülmüşdülər. Müharibələr nəticəsində İrəvan və Naxçıvan xanlıqları ərazisindən xeyli sayda Azərbaycan türkü qaçqın düşmüş, orada yalnız 81749 nəfər azərbaycanlı 16078 ailə qalmışdı. Kütləvi köçürmələrdən sonra "Erməni vilayəti"ndəki ermənilərin sayı 82377 nəfərə (15059 ailə) çatmışdı. Nəticədə vilayətdə erməni əhali müsəlmanları sayca, cüzi də olsa, üstələmişdi. Bununla da çar Rusiyası və erməni siyasət-

çiləri öz çirkin məqsədlərinə nail olmuşdular [4, 403].

İrəvan xanlığının işğalına aid müştərək monoqrafiyada N.N.Şavrovun Rusiyanın Cənubi Qafqazdakı müstəmləkəçilik siyasəti ilə bağlı yazdıqlarına istinadən göstərilir ki, 1828-ci ildən 1830-cu ilə qədər Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi köçürülmüş və onlar erməni əhalisinin cüzi olduğu Quzey Azərbaycan torpaqlarında yerləşdirilmişdilər. Onlar həmçinin Ahıska və Ahalkələk bölgələrində də yerləşdirilmişdilər. Onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq xəzinə torpağı ayrılmış, müsəlmanlardan 2 milyon rubldan artıq məbləğdə xüsusi mülkiyyət torpaqları satın alınmışdı. Rəsmi köçürülən 124 min nəfər erməni ilə yanaşı, qeyri-rəsmi şəkildə köçənlərin də sayı çox olmuş və ümumilikdə köçürülənlərin və köçənlərin sayı 200 min nəfərdən çox idi [4, 404].

Beləliklə, XIX əsrin əvvəllərində Rusiya imperiyası Qacarlar İranını və Osmanlı Türkiyəsini məğlubiyyətə uğradıb, zor gücünə bu meqabölgənin etnik mənzərəsini dəyişdi. Çar Rusiyası Qacarlar və Osmanlılara qarşı müharibələri udaraq, Cənubi Qafqazda yeni imperiya sərhədləri boyunca ermənilərdən ibarət xristian kordonu yaratmaq üçün kütləvi surətdə erməniləri İran və Türkiyədən Şimali Azərbaycan torpaqlarına – keçmiş İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə və digər yerlərə köçürdü [4, 405].

Bununla da XIX əsrin 20-30-cu illərindən etibarən Cənubi Qafqazda yeni toplum – erməni toplumu meydana gəldi. Ermənilər Cənubi Qafqazda daimi münaqişə ocağı yaradaraq, Qacarlar və Osmanlılara qarşı müharibələrdə Rusiyaya hər cür köməklik göstərir və Azərbaycan, Gürcüstan, Osmanlı əraziləri hesabına özlərinə dövlət yaratmağa çalışırdılar. Bütün Cənubi Qafqazda və Şərqi Anadoluda ermənilərin və onların havadarlarının əli ilə soyqırımlar və deportasiyalar törədilməyə başlandı. Bu qanlı siyasətin əsas hədəfi isə Azərbaycan və Türkiyə idi [4, 405-406].

1840-cı ildə “Erməni vilayəti” ləğv edilmiş, onun əvəzində İrəvan qəzası yaradılmış və bu qəza Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. Bununla da Azərbaycanın dövlətçilik ənənələrinə növbəti zərbə vurulmuş və İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq üçün daha bir addım atılmışdı [4, 403]. Köçürülən ermənilərin sayının intensiv surətdə artması ilə bağlı olaraq [8, 260] 1849-cu ildə İrəvan, Aleksandropol (Gümrü), Naxçıvan, Ordubad və Novo-Bəyazid (Göyçə mahalının şərq hissəsi) qəzalarından ibarət İrəvan quberniyası təşkil edilmişdi [4, 403]. Belə ki, 1822-1826-cı illərdə Şimali Azərbaycan əhalisinin ümumi sayı 550 min nəfərə bərabər olduğu halda və onların 51530 nəfərini (9,37 %) ermənilər təşkil etdiyi halda, artıq XIX əsrin 40-cı illərində ölkə əhalisinin sayı 750 min nəfərə qədər, ermənilərin sayı isə 159086-ya (21 %) qədər artmışdı [8, 260]. İrəvan quberniyasının təşkil olunması Şimali Azərbaycan ərazisində erməni dövləti yaradılması istiqamətində daha bir addım olmuşdu [4, 403].

**MƏNBƏ VƏ ƏDƏBİYYAT**

1. Hacıyev F.V. Borçalılar İkinci Rus-Qacar müharibəsində // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, №4, 2013, s.143-149.
2. Süleymanov M.S. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 400 s.
3. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: Elm, 2004, 184 s.
4. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009, 576 s.
5. Əsədov N.C. Azərbaycanın Qarabağ bölgəsində Rusiyanın müstəmləkəçilik siyasətinin həyata keçirilməsində erməni amili (1813-1828-ci illər) // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, №1, 2011, s.191-196.
6. Наджафли Г. Первоначальные факторы, способствовавшие попыткам создания армянского государства на территории Азербайджана // «Кавказ и Мир», Международный научный журнал, 2013, №16, с.81-86.
7. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.
8. Гусейнзаде Р.А. Кавказ и армяне. Баку: Печатный дом «Апострофф», 2014, 486 с.
9. Полное собрание законов Российской Империи (ПСЗРИ), собр. второе, т.III, 1828. СПб:, 1830, 1648 с.
10. АКАК, т.VII. Тифлис, 1878, 1011 с.

## II РУССКО-ИРАНСКАЯ ВОЙНА И ОБРАЗОВАНИЕ «АРМЯНСКОЙ ГУБЕРНИИ»

**Э.З.АЛИЕВ**

### РЕЗЮМЕ

В статье обсуждается образование “Армянской губернии“ на территории Иреванского и Нахичеванского ханства после II русско-гаджарской войны и процесс переселения армян на эту территорию из гаджар-иранской и Османской империй. Царская Россия заселяя эти земли армянами, укрепила геополитическую позицию на Южном Кавказе, использовала армянский фактор для проведения в жизнь своей колонизаторской политики, таким образом на территории Южного Кавказа и Турции возникли различные очаги национальных конфликтов, связанные с территориальными претензиями армян.

**Ключевые слова:** война, договор, губерния, войска, переселения

## II RUSSIAN-İRANIAN WAR AND ESTABLISHMENT OF “THE ARMENIAN PROVINCE”

**E.Z.ALIYEV**

### SUMMARY

The presented article deals with the establishment of “the Armenian Province” in the territory of Iravan and Nakhchivan khanates and resettlement of Armenians from Gajar Iranian and Ottoman empires after the II Russian-Gajar war.

By resettling Armenians in these lands tsarist Russia strengthened its geopolitical position in Southern Caucasus and used the Armenian factor for realizing its colonial policy.

So, different national conflicts connected with the territorial claims of Armenians over Turkey and Southern Caucasus became rather evident.

**Key words**: war, contract, province, troop, resettlement